# Müzəffər Ali Baş Komandana etimad sonsuzdur

Fevralın 7-nə təyin olunmuş prezident seçkiləri müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində keçiriləcək. Bu mənada növbədənkənar prezident seçkiləri ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti kimi dəyərləndirilir. Hər zaman olduğu kimi, bu dəfə də seçkilər demokratik və sivil qaydada təşkil olunacaq.



Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, 2024-cü ildə keçiriləcək prezident seçkiləri zəfər seçkisidir. Seçkinin digər şəhər və rayonlarımız daxil olmaqla, işğaldan azad olunmuş ərazilərimizdə də keçirilməsi bunun sübutudur.

Deputatın sözlərinə görə, Seçki Məcəlləsinə əsasən, növbəti prezident seçkiləri ilə növbədənkənar prezident seçkiləri arasında heç bir prosedur, yaxud müddət fərqi yoxdur. Həmçinin növbədənkənar seçkilərin keçirilməsi praktikası beynəlxalq təcrübədə də var. Belə olan halda seçicilər öz mövqelərini sərbəst şəkildə ifadə edə bilirlər. Vüqar Bayramov bildirib ki, ilk dəfə olaraq, Azərbaycanın bütün ərazilərində təşkil olunacaq budəfəki seçkilər də demokratik və azad formada keçiriləcək. Seçkiyə qatılacaq bütün siyasi partiyalara bərabər imkanlar yaradılacaq.

Deputat qeyd edib ki, Seçki Məcəlləsinə əsasən, növbədənkənar prezident seçkilərinin elan edildiyi gündən başlayaraq bir həftədən gec olmayan müddətdə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən çərşənbə gününə təyin edilir və 60 gün müddətində keçirilir. Həmin vaxt ərzində bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar. Ona görə də namizədlərin hər birinə seçkiqabağı fəaliyyət üçün lazımi şərait yaradılır. Onların təbliğat-təşviqat işlərini icra etmələri üçün mediadan da bərabər istifadə şərtləri müəyyənləşdirilir.

Vüqar Bayramov həmçinin vurğulayıb ki, qalib xalqın müzəffər liderinin növbədənkənar seçkilərlə bağlı qərarı bir daha Prezident, Ali Baş Komandan İlham Əliyevin özünə və xalqın öz liderinə olan böyük etimadını nümayiş etdirir. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən bir müzəffər Ali Baş Komandana da dərin inam və ehtiram yaraşır. Yeni Azərbaycan xalqının Prezident İlham Əliyevi dəstəkləməsinin səbəbləri möhkəmdir. Prezident də xalqın dəstəyinə əmin və arxayındır.

***N.QABİLQIZI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 9 dekabr, № 269.- S.7.